# Qaldıq qorlana-qorlana

**Sevdiyim və şeirlərini hər dəfə yenidən oxuyanda təkrar-təkrar zövq aldığım gözəl və istedadlı şairlərimizdən biri də dünyasını erkən dəyişən, az yazmasına baxmayaraq, poeziyamızda öz nəfəsi, dəstixətti olan Şahmar Əkbərzadədir.**

Şairin qələmə aldığı mövzular da, oxucuya çatdırmaq istədiyi fikrin poetik deyim tərzi də, şeirlərində işlətdiyi bədii təsvir və ifadə vasitələri də özünəməxsus və yenidir. Qəribə bir cazibə qüvvəsi var onun hər şeirində - oxuyursan və elə bilirsən ki, bu duyğular elə sənin özünə aiddir, sən də bu hissləri keçirmisən ürəyindən. Təəssüf edirsən ki, mən niyə yazmamışam bunları? Sonra öz-özünə etiraf edirsən ki, bu ürək titrədən misraları məhz Şahmar Əkbərzadə belə ustalıqla, zərgər dəqiqliyi ilə ard-arda düzə bilərdi. Nə çoxdur şairin adamı silkələyən və yerindən oynadan şeirləri. Məsələn,

**Dolanır boynuma ayrılıq mehi,**
**Hardasa bir dəli həsrət inləyir.**
**Kiminin bəxtini bülbül cəh-cəhi,**
**Kiminin bəxtini qəm qrimləyir.**

Bəs buna nə deyirsiniz:

**Titrətsə də yayın günü,**
**Bir kimsəyə çatmaz ünü.**
**İməkləyər yer üzünü**
**Şahmar qorlana-qorlana!**

Şairin "Doğanaq", "Xoşbəxtliyə bilet", "Vaxtı keçən abunələr", "Təzə nağara", "Tamarzı-tamarzı", "48 ölçülü qadın paltarı", "S", "Mərkəzi poçtxana" kimi şeirlərini oxuyanda adamın lap çızdağı çıxır! Ş.Əkbərzadənin şeirlərindəki bu həzinlik dalğa-dalğa ürəklərimizə axır, ruhumuza, canımıza hopur.

Vətən, doğma torpaq, ikiyə bölünmüş millətin faciəsi haqqında indiyə qədər çox dəyərli əsərlər yazılmışdır. Ancaq Ş.Əkbərzadənin bu mövzularda yazdığı şeirləri də öz təzəliyi, ifadə orijinallığı ilə seçilir. Görün bu misralarda Vətənimizin ikiyə bölünməsi, ürəklərimizin parçalanması dərdi necə də təbii və özünəməxsus şəkildə ifadə edilmişdir:

**Sən iki hecalı bir sözsən, "Və-tən",**
**Sətirdən-sətirə keçirilmisən!**

"Eşmə", "Kölgəm", "Arılar", "Səhənd yuxuma girdi", "Dağdağan", "Cavad Heyəti yola salarkən" kimi şeirlərində də müəllif çox işlənmiş bir mövzuya yeni rəng, çalar qata bilmişdir. Bu mövzuda olan şeirlərdə müəllifin qəhrəman keçmişimizi, ulu tariximizi tərsinə yazanlara, torpağımızı bölənlərə qarşı qəzəbi, nifrəti açıq-aydın hiss olunur:

**Mənim Vətənimi ikiyə bölən**
**Kağızı çıxarın şah arxivindən!**
**O qanlı sənədə tütün bükərək**
**Bir eşmə düzəltmək istəyirəm mən!**

**Hardadır Türkmənçay müqaviləsi?**
**Gətirin, gətirin, bir eşmə eşim.**
**Çəkib tüstüsünü ciyərlərimə**
**Püfləyib hicranın gözünü deşim!**

Şahmar Əkbərzadə böyük sənətkarımız Bəxtiyar Vahabzadəni çox sevir və onu əzizləyə-əzizləyə "Sənin qırıq telli sazına qurban", - deyirdi. Yazırdı ki:

**Sazında dil açdı elin murazı,**
**Tellərə od-alov yükləmisən sən.**
**Yurdumun eşqiylə çaldığın sazı**
**Məsləkin üstündə köklənmisən sən.**



B.Vahabzadə də bir ustad kimi, öz cavan həmkarının, dostunun yaradıcılığına, "Şahmar nəfəsinin, Şahmar yanğısının od aldığı ocağa" yüksək dəyər verərək yazırdı: "Onun şeirlərində forma aludəçiliyinə rast gəlməzsən. Qələm dostum nədən yazır-yazsın, oxucunu düşünməyə məcbur edə bilir. Buna görə də Şahmarın az yazdığına həmişə heyfsilənmişəm... Şahmarı heç vaxt özünü düşünən görməzsən. Bu onun halal təbiətindən, şairliyindən irəli gəlir".

Nədənsə, hər dəfə Ş.Əkbərzadə və onun bənzərsiz poeziyası haqqında düşünəndə mərhum xanəndəmiz Səxavət Məmmədovu xatırlayıram. Şairin bir-birindən şirin misralarını yaz havası kimi ciyərlərimə çəkdikcə qulaqlarımda Səxavətin yanıqlı zəngulələri səslənir. Poeziyada Ş.Əkbərzadənin öz yolu, sözü olduğu kimi, ifaçılıq tariximizdə də S.Məmmədovun xüsusi mövqeyi var. Səxavət də az yaşadı, bir məşum qəzanın qurbanı oldu. Şahmar da yurd itkisinə, Qarabağ həsrətinə dözmədi - ürəyi qəzaya uğradı.

Ş.Əkbərzadənin gözəl şeirlərindən biri də "Ona yanıram ki..." adlanır:

**Ona yanıram ki, xeyiri şərdən**
**Ayıra bilmirik, qana bilmirik.**
**Mən ona yanıram, ona yanıram,**
**Ona yanıram ki, yana bilmirik.**

Biz də yanırıq, şair!

Ona yanırıq ki, az yaşadın, yurd həsrəti, Qarabağ ağrısı ilə getdin həyatdan. Hələ nə qədər deyilməmiş sözləri, yazılmamış şeirləri ürəyində o dünyaya apardın, bizi özünə və sözünə tamarzı qoydun.

Biz də qaldıq qorlana-qorlana...

**Mayis Səlim,**
**Şəki**